

# Dursun Musayeva

**1954-cü ildə Ağsu rayonunun Növcü kəndində anadan olub. Mədəni-maarif texnikumunun məzunudur. Müşfiqabad mədəniyyət evinin metodisti vəzifəsində çalışır. Şeirləri müxtəlif mətbuat orqanlarında dərc edilib.**

## Bu məhəbbəti

Qonaq idi vardı, getdi,
Varlığımı sardı getdi,
Məni oda saldı getdi,
Neynirəm bu məhəbbəti.

Atım deyil, dəvəm deyil,
Oğlum deyil, nəvəm deyil,
Mənim kimi sevən deyil,
Neynirəm bu məhəbbəti.

Ömrə verər zinə, tutmaz,
Köks qabarar, sinə tutmaz,
Bir ürəkdə binə tutmaz,
Neynirəm bu məhəbbəti.

Meylin güldən-gülə saldı,
Məni dildən-dilə saldı,
Bir söz dedim yerə saldı,
Neynirəm bu məhəbbəti.

Gözü dərddən açılmadı,
Ömrə nuru saçılmadı,
Başımıza tac olmadı,
Neynirəm bu məhəbbəti.

Dünya özü günahdadı,
Günah özü sabahdadı,
Ömürdən, gündən bahadı,
Neynirəm bu məhəbbəti.

## Payız duyğuları

Sozalar baharın baxışı-günəş
Gözündən qəriblik süzülüb gedər.
Bir əlçim yarpaqlar, bir işım günəş
Budaqdan əlləri üzülüb gedər.

İpək kövşənləri darayıb payız
Göndərər günəşə hörük yerinə.
Dünyanın qızılı sarayı-payız
Kövrələr közərən çəmənlərinə.

Ağaclar - həsrətdən uçunan ürək,
Eşqini soyunar soyuğun altda.
Saralmış yarpaqlar yaralı quş tək
Qışqırıb bayılar ayağın altda.

Nişanlı qız kimi üzülən payız
Təsəlli axtarar pıçıltılarda.
Xınalı örpəyi süzülən payız
Sökülüb, tökülüb axar sularda.

Yarpaqlar yaşanmış günlərimdimi?!
Atılıb arzuları qışın qarında,
Bahara üz tutan durnalar kimi
Aparar payızı qanadlarında.

Göy otlar çıxammaz vədə yerinə
Xəzəllər çəmənə sırınar indi.
Boylanıb buğlanan kəltənlərinə
Payız toxumlardan bar umar indi.

Açıb qucağını qışın qarına
Zəmilər bir düzən bar götürərlər.
Yuxulu dağlardan yorğun arana
Maşınlar çiynində qar gətirərlər.

Köksünü yağışa gərər bu torpaq
Payız otlarından batar, barınar.
Son dəfə nəfəsin dərər bu torpaq
Döşənər ilk qarın ayaqlarına.

## Baxma gözlərimə

Yadımda bu dünya rəngli qalacaq,
Könlüm səksəkəli, şəkli qalacaq,
Gözümdə gözünün şəkli qalacaq,
Baxma gözlərimə, baxma sən allah!

Gözümə, könlümə sığdımı dünya?
Gözünü yollardan yığdımı dünya?
Axır axırıma çıxdımı dünya?
Baxma gözlərimə, baxma sən allah!

Gözümün əvvəlki odu yoxdu ki,
Dünyanın ləzzəti, dadı yoxdu ki,
Gözlərimdə sehr-cadu yoxdu ki,
Baxma gözlərimə, baxma sən allah!

Bir getdin, qayıdıb yenəmi gəldin?
Təzədən məzhəbə, dinəmi gəldin?
Dağ-dağ eləməyə sinəmi gəldin
Baxma gözlərimə, baxma sən allah!

Sözü söz eləyib sədaya salma,
Məni qana salma, qaydaya salma,
Baxıb gözlərini xataya salma,
Baxma gözlərimə, baxma sən allah!

Dərd-qəmi başımdan sova bilərəm,
Könlünü bir isti yuva bilərəm,
Təzədən vurulub sevə bilərəm,
Baxma gözlərimə, baxma sən allah!

## Ağıllanmadı

*Saçıma ələnən qara baxmayın*
*İçimdə sadəlövh bir qız yaşayır.*
*Bir az xəyalpərvər, bir az ərköyün,*
*Bir az da dəlisov bir qız yaşayır.*
*Bu qız qocaldı da, ağıllanmadı.*

*Deynən yeniyetmə qızdı, inanır,*
*Demir boş, bekara sözdü, inanır.*
*Bir söz de xəyalın azdır, inanır,*
*Bu qız qocaldı da, ağıllanmadı.*

*Yaxşısını bilmir, pisini bilmir,*
*Əyrisini bilmir, düzünü bilmir,*
*Dəlisov uşaq tək sözünü bilmir,*
*Bu qız qocaldı da, ağıllanmadı.*

*Uçulub məhəbbət taxtı, qalmayıb,*
*Sevməyə möhləti yoxdu, qalmayıb,*
*Tövbə eləməyə vaxtı qalmayıb,*
*Bu qız qocaldı da, ağıllanmadı.*

*Taleyi üzünə gülmür ki, gülmür,*
*Baxtıyla barışa bilmir ki, bilmir,*
*İçindəki sevgi ölmür ki, ölmür,*
*Bu qız qocaldı da, ağıllanmadı.*

## Nurdu bu sevgi

***İlahidən gələn nurdu bu sevgi,***
***Sev deyib üzümə durdu bu sevgi,***
***İsrafil çaldığı surdu bu sevgi,***
***Ölən duyğuları oyada bilir.***

***Gahdan gümüldənər könül tarında,***
***Baharı gətirər qışın qarında,***
***Yüz yaşlı qoca da qanadlarında,***
***Gənclik illərinə qayıda bilir.***

***Bir gün ağladanda, bir gün gül deyir,***
***Qəmi, qarğaşağı mənə sirr deyil,***
***Ayrılığa gedən yolu bir deyil,***
***Atlı fəhm eləmir, piyada bilir.***

***Taleyin qoyduğu yönə bəs demir,***
***Bəxtin məhvərindən dönə bəs demir,***
***Məni qırım qoyub mənə bəs demir,***
***O məni məndən də ziyada bilir.***

***Bal dama sevginin uca damından,***
***Bəla əskik olmaz eşq adamından,***
***Hər kim nuş eləsə eşqin camından,***
***Ayıqkən özünü röyada bilir.***



## Neyləməliydi

Özüm də bilmədim nə zaman, nə vaxt
İllər ömrü, günü yarı eləyib.
Xalxın hər gününü bəxtəvər, xoşbəxt
Mənim hər günümü qara eyləyib
İllər daha mənə neyləməliydi?

Zərif əllərimi əlimdən alıb
Qara tellərimi əlimdən alıb
Gənclik illerimi əlimdən alıb
Məni 50 yaşlı qarı eyləyib
İllər daha mənə neyləməliydi?

Əlindən qaçmağa yermi qalıbdı
Açıb tökmədiyi sirmi qalıbdı?
Çiynimdə illərin cürmü qalıbdı
Dərd yükü çiynimi yara eyləyib
İllər daha mənə neyləməliydi?

Ürəyin əzəlki zoru qalmayıb
Əriyib, gözümün nuru qalmayıb
Çeşmə bəbəklərin nuru qalmayıb
Gözümdə dünyanı darı eyləyib
İllər daha mənə neyləməliydi?

Gün günün üstünə günümü gəlib,
Gəlib aramağa günümü, gəlib.
Ömrümün payızı yenimi gəlib?
Yaşıl yarpağımı sarı eyləyib
İllər daha mənə neyləməliydi?

## Payızı gözlə

**Deyirdin, darıxma, payızı gözlə**
**Bu da payız, gəldi...duyğulu payız.**
**Ürəyi sevgiylə, dodağı sözlə**
**Könlü xatirəylə dop-dolu payız.**

**Çiskin yağış yağır hey aram-aram**
**Dolur hər acının yeri dünyada.**
**Deyirdim mən sənsiz yaşayammaram**
**Sənsiz dözəmmərəm diri-dünyada.**

**Arabir oyadıb xatirələri**
**Könlümə qəfləti qonaq gəlirsən.**
**Bir anda adlayıb kəndi, şəhəri**
**Bəzən vaxtlı, bəzən bivaxt gəlirsən.**

**Elə bil, geriyə fırlanır zaman**
**O xoşbəxt, qayğısız günə dönürəm.**
**Ömrün bir qərinə uzaqlığından**
**Sənli günlərimə, sənə dönürəm.**
**Birdən lent qırılır, dayanır zaman...**
**Dolu duyğuların bahar çağından**
**Payız otağıma yenə dönürəm.**

**Ey xəyal dünyamın gizli qonağı**
**Görən sən də məni düşünürmüsən?**
**Dolub, duyğulanıb bir payız çağı**
**Çılpaq ağac kimi üşüyürmüsən?**

## Yaz yağışı

*Atlas paltarını yağışlar yuyar*
*Çəmənlər bir az da yaşıllaşarlar*
*Damcılar çayları muştuluqlayar*
*Çaylar sevincindən aşıb-daşarlar.*

*Daşlar parıldaşar yağışın altda*
*Lalələr boynunu bükər dayanar.*
*Leysanın şıdırğı baxışı altda*
*Qönçə yuxusundan güllər oyanar.*

*Bəlkə qış yuxusu dağıldı deyə*
*Ağaclar üzünü yuyar yağışda.*
*Zərif bürüncəkdə hələ üşüyən*
*Puçurlar hənirti duyar yağışda.*

*Üfüqlər bəzənər qövsi-qüzehlə*
*Dünyaya gözəllik paylar bu yağış.*
*Bağlı pəncərədən islaq küçəyə*
*Yol çəkər o qəmli, o nəmli baxış.*

*Bu yağış buludun göz yaşı deyil,*
*Tanrının islanmış kiprikləridi.*
*Uzanıb-uzanıb torpağa dəyir,*
*Ağlayıb-ağlayıb yeri kiridir.*

*Bu yağış bir ana alqışı kimi*
*Dünyanı bələyə-bələyə gələr.*
*Bu yağış tanrının bəxşişi kimi*
*Bərəkət ələyə-ələyə gələr.*

*Bu yağış qızların ürəklərində*
*Oyadar mürgülü xatirələri.*
*Bir oğlan üşüyər görüş yerində*
*Ovcunda bükülü xatirələri.*

*Doluxar bir qızın xumar baxışı*
*Nigaran-nigaran buluda baxar.*
*Qızların bəxtinə noğul yağışı,*
*Qəlbinə xatirə yağar bu bahar.*

